# Prezident seçkiləri demokratik və şəffaf keçib



**Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda fevralın 7-də keçirilən prezident seçkilərini müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Şurasının və Belarus Respublikası Milli Məclisi Respublika Şurasının nümayəndə heyətləri ilə görüşlər keçirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşlərdə Milli Məclisin Sədri bu seçkilərin Azərbaycan tarixində xüsusi yerini vurğulayaraq deyib ki, ölkəmizin müasir dövlətçilik tarixində ilk dəfədir ki, seçkilər Azərbaycan ərazilərinin hər yerində, o cümlədən işğaldan azad olunmuş bütün şəhər və kəndlərində keçirilib. O, növbədənkənar prezident seçkilərinin Azərbaycan tarixinə həm də Zəfər seçkiləri kimi yazılacağını diqqətə çatdırıb.

Görüşlərdə Azərbaycanda prezident seçkilərinin beynəlxalq normalara uyğun keçirilməsi üçün yaradılan şərait və prosesin yüksək səviyyədə baş tutması barədə məlumat verilib. Qeyd olunub ki, Azərbaycan gənc müstəqil dövlət olmasına baxmayaraq, kifayət qədər zəngin demokratik seçki təcrübəsinə malikdir. 7 fevral prezident seçkilərinin də demokratik, azad, ədalətli və şəffaf şəkildə keçirilməsi üçün bütün müvafiq tədbirlər görülüb. Seçkiləri müşahidə edən yerli və xarici müşahidəçilər də bu faktları təsdiq ediblər.

Rusiya Federasiyası Federal Şurasının komitə sədri Qriqori Karasin seçki prosesinin müşahidələri ilə bağlı müsbət fikirlərini bölüşərək seçkilərin uğurla baş tutması münasibətilə təbriklərini çatdırıb. O, rəhbərlik etdiyi nümayəndə heyətinin üzvlərinin səsvermə günü bir sıra seçki məntəqələrində prosesi canlı şəkildə izlədiklərini bildirib. Seçicilərin yüksək fəallıq nümayiş etdirməsi hər birimizdə bu seçkilərlə bağlı yalnız müsbət rəy yaradıb.

Belarus Respublikası Milli Məclisi Respublika Şurasının sədr müavini Valeri Belski də prezident seçkilərinin ölkə qanunvericiliyinə, demokratik norma və prinsiplərə uyğun keçirildiyini, seçicilərin tam olaraq azad şəkildə səs vermələrinin təmin edildiyini bildirib. Onun sözlərinə görə, müşahidəçilər proses zamanı hər hansı qanun pozuntusu aşkar etməyiblər. Valeri Belski Belarus nümayəndə heyətinin işğaldan azad edilmiş ərazilərimizdə də olduqlarını və əsl seçki bayramı müşahidə etdiklərini vurğulayıb.

Görüşlərdə həmçinin ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, qanunverici orqanlarımız həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində uğurla əməkdaşlıq edirlər.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 9 fevral, № 28.- S.6.